***Mən, Süleymanova Nərmin Zaur qızı, 2007-ci ildə fevral ayının 27-də Azərbaycan Respublikasının Yevlax şəhərində anadan olmuşam. Atam - Süleymanov Zaur Əbdürəhman oğlu 1974-cü ildə Azərbaycan Respublikasının Yevlax şəhərində anadan olmuşdur. Hazırda Yevlax şəhərinin Qaz istimar sahəsində nəzarətçi vəzifəsində işləyir. Anam - Süleymanova Afər Nazim qızı 1980-ci ildə Azərbaycan Respublikasının Yevlax şəhərində anadan olmuşdur. Hazırda Yevlax şəhər 5 nömrəli tam orta məktəbində müəllim işləyir.***

***Qardaşım - Süleymanlı Elvin Zaur oğlu 2010 cu ildə anadan olmuşdur və hazırda Yevlax şəhər 5 nömrəli tam orta məktəbin 7-ci sinfində oxuyur.***

***Mən 2013-cü ildə Yevlax şəhər 5 nömrəli tam orta məktəbin birinci sinfinə getmişəm. Hazırda həmin məktəbin onuncu sinfində oxuyuram.***

**İmza: Nərmin Süleymanova**
**22.11.2022**

## ŞUŞA

Şuşa! İndi ki eşitdim azad olmusan,
Düşmən tapdağından əbədi qurtulmusan.
Biz borcluyuq şəhidlərə, qazilərə
Vətən üçün canından, qanından keçənlərə!

Şuşa! Azadlığın mübarək!
Həmişə səninlə sevinək!
Sevincin hiss olunur daha uzaqlardan,
Günəşin doğuşundan ,quşların uçuşundan.

Şuşa! Qayıdışın mübarək!
İllərimizi səninlə keçirək!
Cıdır düzündə Qarabağ şikəstəsin dinləmək,
Xəyalım idi, oldu gerçək!

Şuşa! Dirçəlişin mübarək!
Təki biz səni hər zaman azad görək!
Acı bir hissdir, dağıntılarını görmək,
Ancaq məğrur görüntün
heç vaxt itməyib, itməyəcək!

Şuşa! Borcluyuq sənsizliyə
son qoyan mərd oğluna,
Sözündə durub səni bizə qovuşdurana,
Müzəffər ordunun Baş Komandanına,
İlham Heydər oğluna!

## QARABAĞ, MSSN GSSLİRSSM!

Əzəmətli dağlarının qarşısında mən,
Ağrılı günlərini yad edirəm!
Şəhid qanlı torpağını,
Mən indi daha çox sevirəm!
Qarabağ, mən gəlirəm!

Güzgü bənzəri göllərinin qarşısında
Vuruşan canları hiss edirəm!
Sənsiz keçən illərimi unuda bilmirəm!
Səni çox sevirəm!
Qarabağ, mən gəlirəm!

Meşələrində gəzərkən,
Torpağının qoxusunu hiss edirəm!
Hər addımımı atarkən,
Yarım canları, yarım həyatları hiss edirəm!
Qarabağ, mən gəlirəm!

Nə gözəlmiş səni belə görmək,
Azad, sərbəst, qalib görmək!
Bunun səbəbkarlarını düşünərkən
mən aman Allah!
Vətən bu qədərmi sevilər deyirəm!

Qarabağ! Mən gəlirəm!
Cıdır düzündə dayanıb, quşlarını seyr edəndə,
Xarıbülbülünü dərib, düzlərini gəzəndə,
Bənzərsizliyini bir daha hiss edirəm!
Səni yenidən görməyə,
Qarabağ! Mən gəlirəm!

Zəfərimi qeyd etməyə,
Şəhidlərimi yad etməyə,
30 ildən sonra bir daha Mən gəlirəm!



Qarabağ! Mən Gəlirəm!

Kredo .- 2022.- 24 dekabr.- S.3.